# Biz haqlıyıq, biz zəfər çalacağıq!

## Azərbaycan Ordusu düşməni geri çəkilməyə məcbur edir



*(əvvəli 1-ci səhifədə)*

Başqa sözlə, indiyədək mülki əhalimizin yaşadığı məntəqələri atəşə tutan xain düşmən cəbhə xəttindən uzaqda yerləşən şəhərlərə raket zərbələri endirir. Gəncə, Bərdə və Tərtərdəki terror aktları və qadağan olunan silahlarla törədilən digər müharibə cinayətləri erməni vandallığının bariz ifadəsidir. Lakin Azərbaycan xalqının qələbə əzmini azaltmağa və ölkəmizdə sabitliyi pozmağa yönələn bu vəhşi cəhdlər hər dəfə uğursuzluqla nəticələnir.

Yeri gəlmişkən, burada diqqəti erməni vəhşiliyinin, vandalizminin bariz ifadəsi olan bir məqama yönəltmək istərdik. Belə ki, işğalçı ölkə terror əməliyyatları zamanı qadağan edilən silahlardan, o cümlədən fosfor silahından istifadəyə daha çox üstünlük verir.

Azərbaycan Prezidentini köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" səhifəsində bildirib ki, 2016-cı ildə dörd günlük Aprel döyüşləri zamanı da Ermənistan Tərtər rayonunun Əskipara kəndinə fosfor mərmiləri atmışdı. ATƏT nümayəndələrini – hərbi attaşeləri dəvət etdik və onların iştirakı ilə partlamamış hərbi sursatlar zərərsizləşdirildi.

Bu ilin oktyabrın 8-də də Ermənistan Füzuli bölgəsini fosforlu silahla atəşə tutub. Lakin mərmi partlamayıb. ANAMA mütəxəssisləri tərəfindən silah zərəsizləşdirilib.

İndi isə düşmən ordusu fosfordan istifadə edərək, pilotsuz təyyarələrmizin kameralarını ağ tüstü ilə örtmək üçün Şuşa meşələrinə od vurur.

Tanınmış türkiyəli hərbi ekspert Abdullah Ağar mətbuata fosfor bombalarının daha çox qarşı tərəfin canlı qüvvəsini məhv etmək üçün istifadə edilən yanan və yandıran xüsusiyyətlərə malik, eyni zamanda, insanlıq cinayəti hallarında özünü göstərən bir kimyəvi maddə olduğunu bildirib: "YPG və PKK aktiv döyüş bölgələrində PUA-ların və ya zərbə dronlarının aktivliyini azaltmaq üçün müxtəlif metodlardan istifadə edirlər. Bu metodlar əsasən təkər yandırmaq, yaxud yanğınlar törətməkdən ibarətdir. Belə üsulla onlar PUA-nın termal kameralarından qorunmağa çalışırlar. Dağlıq Qarabağda gedən müharibədə də erməni işğalçıları tərəfindən PUA-nın görmə dəqiqliyini azaltmaq üçün təkər və ya meşələrin yandırılmasına xüsusi əhəmiyyət verilir. Xüsusilə bu hallar havalar tutqun olduğu zaman diqqətdə saxlanılır. Çünki belə şəraitdə, həmçinin yağışlı havalarda PUA-lardan aktiv şəkildə istifadə zəruri sayılmır.

Deməli, buradan Ermənistanın PKK, YPG arasındakı münasibətlər aydın nəzərə çarpır. Hazırda iki mindən çox PKK-çının gətirilib döyüş bölgələrində Azərbaycana qarşı vuruşa yönləndirilməsi məhz bu məsələdən qaynaqlanır. Beləliklə, PKK bu gün Suriya, İraq və Türkiyədə həyata keçirdiyi terror aktları təcrübəsini Azərbaycana qarşı tətbiq edir.

Ekspertlərin fikrincə, erməni tərəf Qarabağdakı meşələri ağ fosforla yandırmaqla 2002-ci ildə qoşulduğu "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında BMT anlaşmasını vandalcasına pozur, bununla da ətraf mühitə genişmiqyaslı, uzunsürən və ya ağır fəsadlarla nəticələnən zərər vurur.



Moskva, Paris, Vaşinqton və Cenevrədə razılaşdırılan humanitar atəşkəsi kobudcasına pozan xain düşmən qəhrəman əsgərlərimiz tərəfindən döyüş meydanında da layiqli şəkildə cəzalandırılır. Azərbaycan əsgərinin sarsıdıcı əks-hücum həmləsindən təlaşa düşən düşmən tarixi torpaqlarımızdan qorxaqcasına qaçır.

Amma burada bir məsələyə də nəzər salmaq istərdik. Yoxsul, ağır sosial durumda yaşayan Ermənistanın əhalisi illərdir ki, ac-yalavac yaşayır, iqtisadiyyatı gündən-günə çökür. Xarici borcları getdikcə artır. Vəziyyətin yaxşılaşacağına isə güman yoxdur. Bu ölkə, həm də regionda gerçəkləşdirilən qlobal layihələrdən– neft-qaz ixracı marşrutlarından, dəmir yolu xətlərindən, nəqliyyat dəhlizlərindən tamamilə kənardadır. Belə olan təqdirdə bəs faşist xislətli düşmən hansı vəsaitlə müharibə aparır, bu qədər silah-sursatı haradan alır?

Ermənistanın havadarları üçün bir oyuncaq, xaricdə yaşayan varlı ermənilərin əlinə baxan bir dilənçi olması da sirr deyil. Cinayətkar hərbi-siyasi rəhbərliyi bu ölkəni işğalçılığa, cinayətə, aclığa, səfalətə sürükləyib. Zorla orduya göndərilən gənclər, eləcə də qadınlar, qocalar özgə torpağında ucuz, urvatsız ölümə məhkum edilirlər. Odur ki, erməni döyüşçülər cəbhədə ölkəsinin əyri yollarla əldə etdiyi silahı ataraq, məğlub durumda baş götütüb qaçırlar. Bir hissəsi də bu uğursuzluğun əvəzini cəbhə zonasından yüz kilometrlərlə aralıda yerləşən ərazilərə qadağan olunmuş silahlardan atəş açmaqla, dinc sakinlərimizi qətlə yetirməklə, evləri, infrastrukturu yerlə-yeksan etməklə çıxır.



Prezident, Ali Baş Komandan İlham Əliyev Almaniyanın "ARD" televiziya kanalının müxbirinin sualına cavabında deyib: "Sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Yəni bu, sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır?.. Sual olunur, kim onları silahlandırır? Bəzi hallarda bizə qarşı iradlar irəli sürülür ki, biz silahlanırıq, biz silah alırıq və bu, elə bil ki, vəziyyəti gərginləşdirə bilər, vəziyyəti məqbul olmayan məcraya istiqamətləndirə bilər. Ancaq sual olunur, bəs Ermənistan silahlananda? Bəs, bu kasıb, yoxsul ölkədə bu qədər silah-texnika haradandır və bu gün də onlara qaçaq yollarla, qaçaqmalçılıq sxemləri əsasında silahlar, texnika göndərilir və çox təhlükəli, böyük dağıdıcı gücə malik olan texnikalardır. Ona görə biz bu suallara cavab istəyirik və əminəm ki, biz bu cavabı alacağıq".

Jurnalistin dövlətimizin başçısına –"Bu sualı davamlı olaraq verən şəxsdə müəyyən mənada bir cavab olmalıdır", – fikrinə Azərbaycan Prezident yenə də təmkinlə, öz dəyişməyən mövqeyindən çıxış edərək bildirib: "Cavabım olsaydı, soruşmazdım. Hələ də soruşuramsa, o deməkdir ki, cavab almamışam. Biz məhv etdiklərimiz barədə minimum ilkin hesablama aparmışıq, yeri gəlmişkən, mən bizim məhv etdiklərimizin hamısını açıqlamamışam. Bu, olacaq. Bizim məhv etdiyimiz və qənimət kimi götürdüyümüz sursatın dəyəri 2,7 milyard dollardır. Bu pul haradan gəlir? Ermənistan kasıb ölkədir. Onun büdcəsi 2 milyard dollardan azdır. Onun xarici borcu 8 milyard dollardır... Beləliklə, mən soruşuram, amma heç bir cavab verilmir. Ona görə də, soruşmağa davam edəcəyəm".

Bəli, nə vaxtsa, bu sualın cavabı bəlli olacaq, özü də işğalçı Ermənistan tərəfindən cavablandırılacaq. O zaman ulu tarix nə qəsbkarı–qonşunun torpağını illərlə tapdaq altında saxlayanı, nə də faşist xislətli dövlətə gizli yollarla silah-sursat ötürəni cəzasız buraxacaq. Buna heç kimin şübhəsi olmasın...

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***